Dilimiz - mənəviyyatımız

Mirzə İbrahimovun dilçilik görüşləri

Buludxan Xəlilov
filologiya elmləri doktoru, professor

Açar sözlər: *dil, ədəbiyyat, nitq, nöqsanlar, inşa, mədəni insan.*
Ключевые слова: *язык, литература, речь, недостатки, сочинение, культурный человек.*
Key words: *language, literature, speech, shortcomings, composition, a polite person.*

Bədii ədəbiyyat barəsində orijinal fikir yürütmək üçün təkcə tədqiqatçı, alim, geniş dünyagörüş sahibi olmaq kifayət etmir, həm də ən azı həyat adamı olmaq lazımdır. Azərbaycan xalqı böyük ictimai xadim, alim, nasir kimi tanıdığı Mirzə İbrahimov həm də həyat adamı idi. Onun əsərləri həyatın özündən gəlirdi. Hadisələrə yanaşma tərzi, fikir və mülahizələri, duyğu və düşüncəsi həyatiliyi ilə seçilirdi. Belə olduğu üçündür ki, yaradıcı insan, ziyalı kimi onun fikirləri də, yazdıqları da uzun illərin, əsrlərin etalonuna çevrilmişdir. Belə etalon fikirlər Mirzə İbrahimov yaradıcılığında çoxluq təşkil edir. Vaxtilə böyük ədib yazırdı: "Lap qədim zamanlardan bədii yaradıcılığı, ədəbiyyat və incəsənət əsərlərini ruhun, qəlbin qidası adlandırırlar. Bu, çox doğru tərifdir. Axı, həqiqətən də əsl sənət əsərləri insanın ruhunu qidalandırır, ürəyini sevinclə, yüksək duyğular və ehtiraslarla doldurur, yəni insanı mənən, fikrən ucaldır, mübarizə qabiliyyətini, həyat eşqini artırır" (1, s.34). Mirzə İbrahimov ürəyi yüksək duyğularla, ehtiraslarla dolu, mübarizə qabiliyyəti yüksək, həyat eşqi tükənməz olan böyük ictimai xadim, alim, nəsrimizin görkəmli nümayəndələrindən biri olmuşdur.

Mirzə İbrahimovun yaradıcılığında dil məsələləri aparıcı mövqedə olmuş, Azərbaycan dilinin estetik gözəllikləri, məna dolğunluğu, tarixi kökləri geniş şəkildə araşdırılmış, onun elmi-publisistik məqalələrinin obyekti kimi həmişə elmi ictimaiyyətin, geniş xalq kütləsinin maraq dairəsinə çevrilmişdir. Nəticədə Mirzə İbrahimovun dil məsələlərinə dair yazdığı elmi-publisistik məqalələri onun dilçiliklə bağlı görüşlərini yaratmış, dil məsələləri ilə əlaqəli problemlərə aydınlıq gətirmişdir. O, doğma ana dilimizə aid məqalələrini 1940-cı illərdən etibarən yazmağa başlamışdır. Belə yazılardan biri 1944-cü ilin yanvar ayında yazdığı "Dil və ədəbiyyat dərslərini nümunəvi təşkil edək" məqaləsidir. Burada dil və ədəbiyyat məsələsinə dövlət məsələsi, xalqın mənəviyyat və varlıq məsələsi kimi yanaşılmışdır. Mirzə İbrahimov dil və ədəbiyyat, eləcə də xalqın mənəviyyat və varlıq məsələlərinin həllində məktəbin rolunu xüsusi qiymətləndirmişdir. O, məktəbdə dil və ədəbiyyat müəllimlərinin vəzifələrinin məsuliyyətli bir iş olduğunu nəzərə çatdıraraq, onun bütün zamanlar üçün, aktual olduğunu da göstərmişdir. O yazır: "Ədəbiyyat və dil müəllimləri uşaqlara yaxşı və düzgün danışmağı, öz fikirlərini sərbəst ifadə etməyi öyrətməklə kifayətlənə bilməzlər. Bu, onların vəzifələrinin balaca bir hissəsidir. Bu, sözsüz və danışıqsız həyata keçirilməsi lazım gələn bir şeydir". (2, s.41). Mirzə İbrahimova görə, dil öyrətmək dil və ədəbiyyat müəllimlərindən ideya mücahidi olmağı tələb edir. Vaxtilə Həsənbəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Abdulla Şaiq, Üzeyir Hacıbəyli belələrindən olmuş, öz ideyalarının mücahidi kimi xalqın arasında adları uca tutulmuşdur (2, s.42).

Mirzə İbrahimov dil və ədəbiyyat müəllimlərinin uşaqlarda yazı vərdişlərinin formalaşmasında görəcəkləri işlər barəsində də olduqca orijinal fikir söyləyir ki, həmin fikir indi də öz aktuallığını saxlayır. Bu barədə onun söylədiyi hər bir fikir nöqsanları aradan qaldırmaq baxımından indinin özündə də heç də az rol oynamır. Məsələn, "Məktəblərin çoxunda səliqəli, yaraşıqlı xəttə fikir verilmir", "Müəllimlərin əksəriyyətinin hüsnxət qaydalarından xəbəri yoxdur; hərflərin ünsürləri və tənasübü haqqında məlumatsızdırlar", "Yazı lövhələri də didaktikanın tələblərinə cavab verə bilmir". Yaxud: "Xəttin gözəlliyi, yazının səliqəli və yaraşıqlı olması balaca məsələ deyil. Bu, birinci sinifdən başlayaraq uşağı nizam-intizama öyrədən tərbiyə vasitələrindən biridir. Təəssüf ki, məktəblərimizin və müəllimlərimizin çoxu bunu başa düşmür" (2, s.43). Bu məsələlər barəsində Mirzə İbrahimovun yürütdüyü fikirlər onun ayrı-ayrı məktəblərdə öz gözü ilə gördüyü nöqsanlar kimi ümumiləşdirilmişdir. Həmin nöqsanlardan biri də şagirdlərdə nitqin inkişafına diqqətin az olmasıdır. O yazır: "Hərgah hələ də bəzi orta məktəblərimizi bitirən gənclər yaxşı danışa bilmirlərsə, (söhbət doğma ana dilindən gedir-B.X.) bu, biabırçılıqdır, bu bir azardır, tezliklə müalicə olunmalı bir azardır", (2, s.41). Doğrudan da hal-hazırda da şagirdlərimizin nitqində olan qüsurlar az deyildir. Şagirdlər öz fikirlərini ifadə etməkdə çətinlik çəkirlər, hər hansı bir məsələ barəsində mühakimə yürütmək qabiliyyətləri zəifdir, ədəbi-bədii dilin imkanlarına tam şəkildə yiyələnə bilmirlər, ədəbi-bədii dilin imkanlarını dialekt və şivələrin təsiri altına salırlar. Qeyd etmək lazımdır ki, Mirzə İbrahimov dil və ədəbiyyat dərslərindəki nöqsanlardan bəhs edən zaman o qədər dürüst və dolğun fikirlər söyləmişdir ki, bu sözlərin müəllifini ən nümunəvi, təcrübəli dil və ədəbiyyat müəllimi kimi qəbul etməli olursan. Doğrudan da, belə dürüst və dolğun fikirləri o şəxslər söyləyə bilər ki, onlar dil və ədəbiyyat müəllimi kimi dərin biliyə, uzunmüddətli təcrübəyə, milli maraqları qorumaq iqtidarına malik olsunlar. Məhz Mirzə İbrahimov belələrindən biri və Azərbaycan xalqının dilinin, ədəbiyyatının müəllimi olmaqla yazırdı: "Ümumi nöqsanlarımızdan biri də şagirdlərdə nitqin inkişafına az fikir verilməsidir. Onlar hətta, bildikləri bir şeyi belə düzgün, möhkəm, yığcam, tutarlı və məntiqlə ifadə edə bilmirlər. Təsəvvür, təxəyyül, mühakimə qabiliyyəti uşaqlarda az inkişaf etdirilir. Onlara ədəbi-bədii danışıq vərdişi aşılanmır. Çox zaman yerli dialekt və şivənin mənfi cəhətləri ilə ardıcıl surətdə mübarizə aparmaq, şagirdləri bədii dilə alışdırmaq əvəzinə, ayrı-ayrı müəllimlər özləri yerli dialektin təsiri altına düşürlər" (2, s.44).

Mirzə İbrahimov dil və ədəbiyyat dərslərində diqqəti cəlb edən nöqsanlardan biri kimi şagirdlərin yazı vərdişlərinin nöqsanlı olmasını da nəzərdən qaçırmamışdır. Bu məsələdə də onun fakta istinad etməsi, təhlili, müəllimlərin (dil və ədəbiyyat müəllimlərinin) görəcəkləri işlər barəsindəki fikirləri həmişə aktuallığını qorumaqdadır. Qeyd etmək lazımdır ki, indinin özündə də şagirdlərin də, tələbələrin də yazı mədəniyyəti nöqsanlıdır. Məsələn, onlar fikirlərini sərbəst şəkildə ədəbi dilimizin qayda-qanunlarına uyğun yazmaqda, eləcə də ərizə, protokol, məktub (məktub yazmaq son dövrlərdə informasiya kommunikasiya texnologiyaları vasitələrinin inkişafı ilə bağlı olaraq öz əhəmiyyətini itirmişdir), inşa, imla, ifadə yazıları yazmaqda nöqsanlara yol verirlər. Mirzə İbrahimov bu barədə yazırdı: "Şagirdlərin yazı nitqləri çox nöqsanlıdır. Onlar ərizə, vəsiqə, elan, məktub yaza bilmirlər.

Fikirlərini yazılı şəkildə çətin ifadə edir, plan və konspekt tütmaqda çətinlik çəkirlər. Bunun da səbəbi məktəblərimizdə yazı dərslərinin pis təşkil edilməsidir" (2, s.44).

Yeri gəlmişkən qeyd edək ki, əvvəlki dövrlərdə də, indi də sərbəst mövzuda inşa yazan, öz mühakiməsi əsasında ifadə yazıları yazan, eləcə də yoxlama imlaları nöqsansız yazan şagirdlər azdır. Bunun əsas səbəblərindən biri şagirdlərin çoxunun mühakimə yürütmək, təhlil etmək qabiliyyətinin, faktlara, hadisələrə yaradıcı yanaşmaq bacarığının olmamasıdır. Məhz Mirzə İbrahimov bu istiqamətdə olan nöqsanları ümumiləşdirmiş və onları aradan qaldırmaq üçün dil, ədəbiyyat müəllimlərinin məsuliyyətini artırmağa çağırmışdır. O yazırdı: "Məktəblərimizdə çox zaman yazının ancaq imla növləri hakimdir. Bu yazı üslubundan sui-istifadə edilməsi şagirdlərin yaradıcılıq işini korlayır. Yaradıcılıq yazıları, plan üzrə inşalar, sərbəst mövzular taparaq onu istədiyi şəkildə ifadə etmək kimi üsullar işlənmir. Kitabı və ya başqa ədəbi-tənqidi bir əsəri oxuyub, onu öz mühakimə süzgəcindən keçirərək, möhkəm sübut və dəlillərlə müəyyən bir fikir yeridən şagirdlər hələ azdır" (2, s.44).

Mirzə İbrahimov morfologiya və sintaksisin tədrisində uşaqlara anlamadan tərifl ərin əzbərlənməsini, eləcə də yazıçının əsərlərinin əsas xüsusiyyətlərinin aydınlaşdırılmasını, sinifdənxaric qiraətin yaxşı təşkil olunmasını, şagirdlərin söz ehtiyatının formalaşdırılmasına az fikir verilməsini, ifadəli, mənalı və təsirli bədii qiraətə az fikir verilməsini, mütaliə vərdişinin tələbata çevrilməməsini aradan qaldırmaq üçün dil və ədəbiyyat müəllimlərinin vəzifələrini mükəmməl yerinə yetirməyi vacib saymışdır. (2, s.45-47).

Mirzə İbrahimov təkcə dil və ədəbiyyat müəllimlərinin deyil, həm də orta və ali məktəbin ixtisasından asılı olmayaraq hər bir müəlliminin doğma ana dilini mükəmməl şəkildə bilməsinə böyük əhəmiyyət vermişdir. O yazırdı: "İstər orta, istərsə də ali məktəb müəllimi öz ixtisasından asılı olmayaraq hər hansı bir dili, birinci növbədə, öz ana dilini mükəmməl surətdə bilməyə məcburdur" (2, s.48).

Mirzə İbrahimov "Hansı adamları mədəni hesab etmək olar?" sualına düzgün bir cavab da tapırdı. Hər şeydən əvvəl, Azərbaycan ədəbiyyatını (Füzulini, Vaqifi, Sabiri və s.), eləcə də dünya ədəbiyyatını (Puşkini, Tolstoyu, Şekspiri, Şilleri və s.) oxumamış adamı mədəni hesab etməmiş, bundan başqa, mədəni danışmağın yalnız dilçilərin, ədəbiyyatçıların deyil, müəllim olan hər bir kəsin işi olduğunu söyləmişdir. O, bu məsələ barədə belə yazırdı: "Məgər Füzulini, Vaqifi, Mirzə Fətəli Axundovu, Sabiri, Puşkini, Tolstoyu, Şekspiri, Şilleri oxumamış adamı mədəni adam hesab etmək olarmı? Belə bir şüurun nəticəsidir ki, siz nəinki orta məktəb müəllimləri, hətta ali məktəb müəllimləri içərisində mühazirələri birtəhər aparan, qırıq-kəsik cümlələrlə fikrini izah edən, doğru-düzgün yazıb danışa bilməyən adamlara rast gəlirsiniz". Mirzə İbrahimov daha sonra davam edərək yazırdı: "Guya dili bilmək, zəngin, ahəngdar, mənalı danışmaq ədəbiyyatçıların işi imiş... Belə bir fikri irəli sürmək nadanlıqdan başqa bir şey deyildir" (2, s.48). Bir sözlə, Mirzə İbrahimov "Dil və ədəbiyyat dərslərini nümunəvi təşkil edək" məqaləsində orta və ali məktəblərdə dil və ədəbiyyat müəllimlərinin görəcəkləri işləri bir-bir təhlil etmiş, onların müqəddəs borclarının nədən ibarət olduğunu peşəkar bir səviyyədə nəzərinə çatdırmışdır.

Mirzə İbrahimovun dillə bağlı məqalələrindən biri də 1944-cü ilin fevral ayında yazılmışdır. "Dilimizin inkişaf yolları haqqında" adlanan bu məqalədə dilin "tükənməz mədəniyyət xəzinəsi", dilin "canlı bir orqanizm" olması məsələlərinə diqqət göstərilməklə yanaşı, dilimizin keçdiyi tarixi inkişafla bağlı çox maraqlı məsələlər də nəzərdən keçirilmişdir. O, haqlı olaraq qeyd etmişdir ki, bugünkü dilimizlə min illər bundan qabaqkı dilimiz arasında əlaqə tellərinin qırılması səbəblərindən biri ən qədim yazılı abidələrimizin yandırılması və oğurlanmasıdır. Mirzə İbrahimov əlimizdə olan ən qədim yazılı mənbələrdən "Kitabi-Dədə Qorqud" dastanlarını xüsusi olaraq qeyd etmiş və bu abidənin yaradıcılıq dövründəki Azərbaycan dilinin xüsusiyyətlərini əks etdirməsindən bəhs etmişdir. Bundan başqa, Azərbaycan dilinin inkişaf mərhələlərinə əsl dilçi alim kimi yanaşmış və "Kitabi-Dədə Qorqud"dan sonra İzzəddin Həsənoğlu və İmadəddin Nəsimi dövrünü Azərbaycan dilinin inkişafında xüsusi mərhələ adlandırmış, Nəsiminin Azərbaycan dilini yüksək bir dil səviyyəsinə qaldırmasını qeyd etmişdir. Onun fikrincə, "Bəzən Nəsimini anlamaq çətinliyi onun dilinin qəlizliyindən deyil, ifadə etdiyi fəlsəfi fikirləri dərk etmək üçün müəyyən tarixi, elmi, fəlsəfi hazırlığın yoxluğundan irəli gəlir" (2,s.10). Əlbəttə, İzzəddin Həsənoğlu da, İmadəddin Nəsimi də Azərbaycan dilinə və onun imkanlarına nə qədər borcludursa, Azərbaycan dili də dilimizi yüksək dil səviyyəsinə qaldıran bu dahi şəxsiyyətlərə bir o qədər borcludur. Bu mənada Mirzə İbrahimov İmadəddin Nəsimi barəsində çox dəqiq və dürüst qənaətə gələrək yazırdı: "Nəsimi Azərbaycan dilini əsrinin qabaqcıl fikir və arzularını ifadə edən yüksək bir dil səviyyəsinə qaldırdı. Nəsimi dilimizi ideallar uğrunda mübarizə dilinə, təbliğat və təşviqat dilinə çevirdi. Nəsimi öz fəlsəfəsi və təfəkkürü ilə əlaqədar olaraq, dilimizin çərçivəsini xeyli genişləndirdi. Ona tamamilə yeni təşbehlər, ifadələr, fikirlər gətirdi" (2,s.9-10). Bununla da Mirzə İbrahimov sübut etməyə çalışmışdır ki, Azərbaycan dili XIV əsrdə yalnız məişət dili deyil, həm də ədəbi dil, elm, fəlsəfə, poeziya dili olmuşdur.

Mirzə İbrahimov Azərbaycan ədəbi dilinin inkişafında dövrün ictimai-siyasi və tarixi hadisələrinin rolunu nəzərə alaraq Səfəvilərin hakimiyyəti dövrünü xüsusi olaraq xarakterizə edir, bu dövrü ədəbi dilin inkişafında bir mərhələ kimi səciyyələndirir. Şah İsmayıl Xətainin doğma ana dilində-Azərbaycan dilində şeirlər yazması, dövlət fərmanlarının bu dildə yazılması dilimizi elm və poeziya dilinə çevirmişdir. Nəticədə Mirzə İbrahimova görə, belə bir təməl üzərində Məhəmməd Füzuli yetişmişdir. Məhəmməd Füzuli Azərbaycan dilini qəzəl dili kimi daha yüksəklərə qaldırmaqla yanaşı, dil və təfəkkür aləmində dəyişiklik yaratdı. Doğrudan da, Məhəmməd Füzuli dili (Azərbaycan dilini) və təfəkkürü elə bir zirvəyə yüksəltdi ki, onun təsiri altından uzun müddət ədəbiyyatımız çıxa bilmədi və "Füzuli məktəbi" ədəbiyyat tariximizdə dərin kök saldı. Təbii ki, bunların hamısı Məhəmməd Füzulinin yaratdığı ənənələrin əsasında baş verdi. Dil məsələsində Məhəmməd Füzulinin oynadığı rolu Mirzə İbrahimov belə xarakterizə etmişdir: "Hətta dil məsələsinin çox şiddətli bir siyasi mübarizə məsələsinə çevrildiyi, saf Azərbaycan dili uğrunda mübarizənin alovlandığı zamanda yetişən böyük inqilabçı şair Sabirə belə bu təsirlər (Məhəmməd Füzulidən söhbət gedir-B.X.) özünü göstərirdi. Buna baxmayaraq, Azərbaycan dilini dünya miqyasına çıxacaq klassik ədəbiyyat dilinə çevirməkdə Füzulinin rolu olduqca böyükdür" (2, s.13). Mirzə İbrahimov Məhəmməd Füzuli dövründə xalq ədəbiyyatının inkişaf etməsinə də nəzər yetirmiş və bu istiqamətdə xeyli irəliləyişin olduğu qənaətinə gəlmişdir. Mirzə İbrahimova görə, Füzuli dövründə yaranmaqda olan "Koroğlu" dastanının dili ondan çox-çox qabaqlar yaranmış "Kitabi-Dədə Qorqud" dastanının dili ilə müqayisədə daha cilalanmış, sığallanmış, o dövrdəki Azərbaycan dilinin tələblərinə uyğun olan

bir dil olmuşdur. "Koroğlu" dastanının dili o dövrün xalq ədəbiyyatı dilinə uyğun olduğundan bu dastan xalqın daha çox sevdiyi dastana çevrilmişdir. Mirzə İbrahimov Azərbaycan dilinin inkişafında növbəti mərhələlərdən birini XVIII əsr mərhələsi-Vaqif mərhələsi adlandırmışdır. Bu mərhələnin nəinki dil və ədəbiyyat tariximiz üçün, həm də bütünlükdə tariximiz üçün maraqlı olduğunu dilimizin və tariximizin vəhdətində araşdırmışdır. O dövrün tarixi mənzərəsini əks etdirmiş, Fətəli xanın Gəncəni, Bakını, Qubanı, Şamaxını, Təbrizi birləşdirən bir dövlət yaratdığını o dövrün tarixi zərurəti kimi dəyərləndirmişdir. Belə bir vəziyyətin hamının anladığı vahid dilin hakim olmasına meydan yaratmasını bir zərurətin nəticəsi kimi qəbul etmişdir. Və bu proseslər içərisində Vaqifin ədəbi dilimizin tarixində oynadığı rolu, əslində Vaqif mərhələsinin spesifik xüsusiyyətlərini çox dəqiq ifadə edir: "Ümumi-ictimai hərəkatla əlaqədar olaraq dildə ərəb və fars təsirlərindən uzaqlaşmaq və xalqa yaxınlaşmaq meylləri daha da artır. Vaqif bütün bu ictimai hadisələrin iştirakçısı və dildə ərəb, fars təsirlərinə qarşı mübarizənin ilhamçısı olmuşdur. Vaqifin şeirlərindəki təşbehlər, sözlər, ifadələr əksəran xalqdan alınmışdır. Çox zaman Vaqifin şeirlərini aşıq şeirlərindən seçmək olmur" (2, s.14).

Azərbaycan dilinin inkişafında XIX əsr o dövrün ictimai-siyasi hadisələri ilə bağlı olan bir mərhələdir. Mirzə İbrahimov bu mərhələni M.F.Axundov mərhələsi kimi səciyyələndirməyin amillərini əsas götürmüşdür: əlifba məsələsi, ərəb və fars kəlmələrinin Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşdırılması və s. Daha sonra A.Bakıxanovun, Mirzə Fətəli Axundovun, Həsənbəy Zərdabinin yolunu davam etdirən cərəyanın davamçıları "Molla Nəsrəddin" ətrafında birləşirlər ki, bunu da Mirzə İbrahimov 1905-ci ildən 1920-ci ilə qədər Azərbaycan dilinin inkişafında bir mərhələ kimi göstərir. O, "Molla Nəsrəddin"çiləri də, "Füyuzat"çıları da Azərbaycan dilinin inkişafında öz fəaliyyət istiqamətləri baxımından müqayisə edir, onların fikirlərini, mövqelərini və əqidələrini sözün həqiqi mənasında dil tarixçisi kimi anlatmağa çalışır. Bundan başqa, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan dilinin inkişafında yeni bir mərhələnin yarandığını və bu mərhələnin dilimizin inkişafına, yüksəlişinə xidmət etdiyini təqdir edir. Eyni zamanda Azərbaycan dilinin qüdrətli, mənalı, kamil bir dil kimi inkişafında C.Cabbarlının, Məmməd Səid Ordubadinin, Səməd Vurğunun, Mir Cəlalın, Süleyman Rəhimovun, Süleyman Rüstəmin, Sabit Rəhmanın, Rəsul Rzanın, Osman Sarıvəllinin, Əhməd Cəmilin və başqalarının rolunu xüsusi olaraq qeyd edir.

Mirzə İbrahimov dilimizə tərcümə olunan əsərlərin nöqsanlı olması səbəblərinə də diqqət yetirir və bu barədə yazır: "...dilimizdəki nöqsanlar tərcümənin çoxluğunda deyil, bəlkə pisliyindədir; tərcüməçi adı altında bəzən savadsız, heç bir dili ağıllı-başlı bilməyən adamların əlinə qələm alıb meydan sulamasındadır. Bu nöqsanların yaranmasına səbəb tərcümə deyil, bəlkə bəzən çox savadlı və gözəl tərcümələrin savadsız redaktorların əlinə düşməsidir. Nəhayət, dilimizdəki nöqsanlara səbəb bəzi yazıçı, redaktor və tərcüməçilərimizin dilə qarşı məsuliyyətsiz münasibətidir" (2, s.25).

Mirzə İbrahimovun tərcümə ədəbiyyatı və ədəbi dilimizlə bağlı irəli sürdüyü nəzəri fikirlər bütün zamanlar üçün aktualdır O, tərcümə əsərlərinin bədii, elmi, fəlsəfi və siyasi əsər olmasını əsas götürərək hər birinə verilən tələbləri də nəzərə almağı vacib saymışdır. Eyni zamanda tərcümə işinə yaradıcılıq işi kimi baxmışdır. Belə ki, tərcümə zamanı hər bir dilin qayda-qanunlarına əməl etmək lazımdır. Tərcümə prosesi ilə bağlı

bütün bu deyilənlər barəsində Mirzə İbrahimov yazırdı: "İstər siyasi, istər fəlsəfi və istərsə ədəbi əsərlərin tərcüməsinə yaradıcılıq işi kimi baxdığımızdan, biz həmin bu hərfi-hərfinə tərcümə iddiasının, belə mühakimənin, belə düşüncənin əleyhinəyik. Bizim dediyimiz odur ki, hər hansı bir xalqın şüurunu, dilini başqa təfəkkürün, başqa dilin meyarı ilə ölçmək yanlış bir yoldur. Bu yoldan birdəfəlik əl çəkmək lazımdır. Çünki bir dili başqa bir dilin qanunları ilə ölçmək, yaxud o qanunlara tabe etmək düzgün yol deyildir. Hər dilin, ancaq öz qanunları və öz ifadə formaları müqəddəs və gözəldir (2, s.25).

Mirzə İbrahimov dili də, ədəbiyyatı da bütün incəliklərinə qədər dərindən duyan, sevən və dilə də, ədəbiyyata da həssaslıqla yanaşan dilşünas və ədəbiyyatşünasdır. Bunu onun dil və ədəbiyyat barəsindəki fikirlərinin hər biri təsdiq edir. Fikir verin: "Ədəbiyyat dilin cəbbəxanasıdır. Ən incə mətləbləri, gözəl sözləri, şirin ifadələri ədəbiyyat bizə təqdim etməlidir. Bir xalqın dilini inkişaf etdirən, ona məlahət, lətafət və həssaslıq gətirən vasitələrdən biri də ədəbiyyatdır. Digər tərəfdən, ədəbiyyat son dərəcə təsir edən, istiqamət verən, yol göstərən bir sənətdir" (2, s.23). Bu fikiri o ədəbiyyatşünas, dilşünas söyləyə bilər ki, o, millətin dilini, ədəbiyyatını kamil bilsin, dilə və ədəbiyyata həssaslıqla yanaşsın, dilin və ədəbiyyatın imkanlarına dərindən bələd olsun, dilin və ədəbiyyatın ruhu ilə nəfəs alsın.

Mirzə İbrahimovun 1945-ci ilin noyabr ayında Təbrizdə yazdığı "Azərbaycan dili" məqaləsi millət və onun dili barədə daha ümumiləşdirici bir məqalədir. Məqalə Mirzə İbrahimovun Azərbaycan dilinin qədim tarixi, inkişafı, Azərbaycan dilinin inkişafında şair və yazıçıların rolu, dilimizin inkişafını təmin edən məsələlər barəsində verdiyi ümumiləşdirici izahlar dil tarixçilərimizə əsl elmi istiqamət verir. Dilçiləri Azərbaycan dilinin kölgədə qalmış, işlənilməmiş tərəflərini tədqiq etməyə səfərbər edir. Məsələn, Midiya dövləti, onun dili, mədəniyyəti barəsində o qədər dəqiq, milli və dövlətçilik maraqlarımıza uyğun obyektivliyə söykənən fikir söyləyir ki, bunu hər bir dilçi və tarixçi təkcə qəbul etmir, həm də bu istiqamətdə araşdırmalar aparmağı müqəddəs bir işə çevirməyə məcbur olur. O yazır: "Məlum olduğu üzrə, hələ miladidən 500 il əvvəl, indiki Cənubi və Şimali Azərbaycan torpaqlarında qədim dünyanın qüdrətli dövləti olan Midiya dövləti yerləşmişdi. O zaman bu torpaqlar Midiya və onun üzərində yaşayan xalq Midiya xalqı adlanırdı. Tarix sübut edir ki, midiyalılar azərbaycanlıların qədim babaları olmuşlar. Onların böyük mədəniyyət və sənətə malik olduqlarını bütün tarixçilər yazmaqdadırlar. Midiyalıların mədəniyyət və dili o qədər tərəqqi etmişdir ki, qədim farslar onlara görə çox dala qalmış və ibtidai halda idilər. Dilşünaslar indiki Azərbaycan dilində o zamankı Midiya dilinin qalıqlarını və ünsürlərini tapırlar. Lakin qədim Midiya dili haqqında olan mühüm yazılar, zəmanəmizə qədər gəlib çıxmadığından bu sahədəki elmi-tədqiqat işləri də çox çətinləşir" (2, 55-56). Mirzə İbrahimov bu məsələdə bir az da dərinə gedərək midiyalılara məxsus yazılı abidələrin dövrümüzə gəlib çıxmamasının səbəbini açıqlayır və bunun da dilimizin tarixini öyrənməkdə böyük çətinliklər yaratdığını və nəticədə Azərbaycan xalqı və dili barəsində yanlış, iftira, uydurma dolu nəzəriyyələrin meydana çıxmasını həqiqətin təhrifi kimi izah edir. Midiyalılara məxsus olan ədəbi-bədii, elmi əsərlərin və yazıların dövrümüzə gəlib çıxmaması barədə yazır: "Onları (yəni midiyalılara məxsus mədəniyyəti və yazıları -B.X.) işğalçılar ya məhv etmiş və ya da qəsb etmişlər. Midiyanın elm və sənət asarını (əsərini-B.X.) dünyanın bütün muzeylərində tapmaq mümkündür. Çünki Azər-

baycan xalqının düşmənləri, onun torpağına göz dikənlər nəinki bizim milli dövlət və siyasi istiqlaliyyətimizi məhv etmiş, həm də, elm, sənət asarımızı (əsərimizi – B.X.) və ana dilimizi də aradan götürmək istəmişlər. Bu məqsədlə qəsbkarlar daha da irəli gedərək Azərbaycan xalqının mənşəyi və doğma dili haqqında başdan dibə yalan və iftiradan ibarət olan bir "tarix", bir "nəzəriyyə" də uydurmuşlar" (2, s.56). Düzdür, dil axar su kimi həmişə hərəkətdədir. Dilin həmişə hərəkətdə olması onun lüğət tərkibində, qrammatik quruluşunda həmişə dəyişiklik yaradır, yəni dil yerində dayanmır, inkişaf edir. Bu mənada Midiya dili ilə müasir Azərbaycan dili arasında tam mənada eyniyyət axtarmaq yanlış bir mövqe olardı. Ona görə ki, Midiya dilindən indiyə qədər Azərbaycan dili yarandığı kimi qalmamış, dəyişmiş və inkişaf etmişdir. Belə bir təbii proses digər dillərdə də özünü göstərmişdir. Bu məntiqdən çıxış edən Mirzə İbrahimov yazırdı: "Tarix göstərir ki, heç bir xalqın dili əvvəlki şəklində, qədim zamanda olduğu şəklində qalmır, dil də həyatla birlikdə dəyişir, tərəqqi edir, axar bir çay kimi daima hərəkətdə olur. Belə olmasa idi, indiki Azərbaycan dili əvvəlki şəklində qalardı. Həmçinin belə olmasa idi, indiki farslar qədim fars yazılarını anlaya bilərdilər. Halbuki bu yazıları indiki fars dilinə tərcümə etmədən anlamaq mümkün deyildir. Eyni sözü ermənilər, yunanlar, ruslar haqqında da demək olar" (2, s. 56).

Mirzə İbrahimovu həmişə düşündürən, narahat edən məsələlərdən biri də İranda yaşayan soydaşlarımızın taleyi, həyatı, onların qarşılaşdığı çətinliklər və bu yolda apardıqları mübarizə, ən başlıcası dil məsələsi olmuşdur. Odur ki, Mirzə İbrahimov 1945-ci ilin iyul ayında İranda olarkən Azərbaycan demokratik firqəsinin milli muxtariyyət və demokratik hüquqlar uğrunda apardığı mübarizə ilə bağlı mütərəqqi adamların fikirlərini də dərk edərək, öz müşahidələrini 1946-cı ilin may ayında yazdığı "Cənubdan səslər" məqaləsində əks etdirmişdir. Xüsusilə, Azərbaycan demokrat firqəsinin rəsmi orqanı olan "Azərbaycan" qəzetində çap olunmuş bütün mütərəqqi və mübariz oğulların çıxışlarını, məqalələrini təəssübkeşliklə yada salmışdır. Bir sözlə, Mirzə İbrahimov "Azərbaycan" qəzetində dillə bağlı çap olunmuş məqalələrdən sitat gətirərək İrandakı soydaşlarımızın düşüncəsini, milli duyğularını, vətənpərvərliklərini, hakim fars millətçilərinə və mürtəcelərinə qarşı mübarizələrini bu taydakı soydaşlarımıza çatdırmağa çalışmışdır. Məsələn, "Azərbaycan" qəzetinin 1945-ci ilin 6 noyabr tarixli nömrəsində azadlıq uğrunda mübarizəyə qoşulmuş bir gəncin yazdıqlarından gətirilən sitat: "Azərbaycan milləti öz haqqının əhyasını tələb edir. Bizim qanuni sözümüz vardır! Biz buranın milləti sayılırıq və burada təbii haqq-həyatımız vardır. O haqqı indiyə kimi bizə verməyiblər, verməməkdən əlavə, bizə də bildiklərini ediblər. Bizim dilimizi, maarifimizi, milli ədəb və rüsumumuzu alıblar və bizi təhqir edərək bizimlə qul və ağa şəraitində rəftar olunubdur!..." (3, 53). Yaxud : "... Məlum olduğuna görə, istər keçmişdə və istərsə hazırda hakim fars millətçiləri və mürtəcələri Azərbaycan xalqının milli varlığını, dilini və qədim tarixini danmış, onu əbədilik milli zülm altında saxlamaq üçün min cür böhtan, "elmi" cəfəngiyat uydurmuşdular. Buna cavab olaraq Azərbaycan xalqı və Azərbaycan vətənpərvərləri öz tarixini saxlamış, öz dilini və milli mədəniyyətini daha artıq inkişaf etdirmişdir" (3, 53.)

Mirzə İbrahimov yazırdı ki, dil məsələsi İranda yaşayan azərbaycanlıların mübarizə apardığı ən mühüm məsələlərdən biri idi. Bu məsələ təkcə qəzetlərdə deyil, küçələrdə, bazarlarda, meydanlarda yığıncaqlarda, iclaslarda insanları fikirləşdirir, məşğul edirdi. "Hakim fars mə-

murları Azərbaycan dilini sıxışdırmaq, iclasları, idarə və məhkəmələri farsca aparmaq istərkən xalqın böyük müqavimətinə rast gəlirdi ... Farslardan sonra İranda ən böyük xalq olan azərbaycanlılar öz dillərində qəzet və kitablar nəşr edir, məktəbləri ana dilinə çevirmək tələbini ortalığa atırdılar" (3, 55). Mirzə İbrahimov onu da qeyd edirdi ki, İranda yaşayan soydaşlarımız "Azərbaycan" qəzetində yazırdı ki, xalqımız qədimdən bəri Azərbaycan dilində danışmış, bu dili gündəlik ehtiyacına çevirmişdir. Bu dildə oxuyub-yazmaq onların dərdinin çarəsi olacaqdır. (Bax: 3, 55). Bununla da Mirzə İbrahimov İranda yaşayan soydaşlarımızın dil uğrunda apardıqları mübarizəni məslək, əqidə, milli muxtariyyət mübarizəsi kimi qiymətləndirirdi.

Mirzə İbrahimov dil məsələsinə o qədər həssas və təəssübkeşliklə yanaşmışdır ki, bu məsələdən bəhs edən zaman heç bir təzyiqdən, təqibdən qorxmayaraq öz sözünü cəsarətlə demiş, milli maraqlarımızı təmin edən bir mövqe tutmuşdur. Belə məqamlarda Mirzə İbrahimov həm də bir siyasət adamı kimi yazdıqlarının və dediklərinin siyasi çərçivəsini məharətlə tənzimləyə bilmişdir. Həm də keçmiş Sovet İttifaqında yaşayan vətəndaşların hər birinin doğma ana dilinə xüsusi diqqət göstərməsinə və doğma ana dilinə biganə, laqeyd münasibətdə olan dövlət idarələrinin yarıtmaz fəaliyyətinə ciddi bir məsələ kimi yanaşmışdır. 1956-cı ilin sentyabr ayında yazdığı "Azərbaycan dili dövlət idarələrində" məqaləsi təkcə Azərbaycan dilinin deyil, o cümlədən milli dillərin yüksək səviyyədə işlənməsi yolunda bir mübarizə proqramı rolunu oynamışdır. Bu məqalədən bəzi məqamları xatırlasaq, yəqin ki, yerinə düşər. "Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da bunları tamamilə cavabsız buraxan bürokratlar da tapılır. Belə bürokratlarla mübarizə bütün partiya və sovet təşkilatlarının, bütün vətəndaşların borcudur" (2, s. 70).

Mirzə İbrahimov ana dilimizin-Azərbaycan dilinin dövlət idarələrində işlənməsini vacib saymaqla, əslində onun statusuna, nüfuzuna kölgə salan bürokratlara qarşı öz kəskin mövqeyini açıq şəkildə bildirirdi. Hətta ayrı-ayrı nazirliklərin, idarələrin "xüsusiyyətini" bəhanə gətirənlər barəsində yazırdı: "...deyirlər ki, Maliyyə Nazirliyi sistemində guya Azərbaycan dilini işlətmək çətindir və sairə. Bu bəhanələrin əsassız və puç olduğu aydındır" (2, 71). Mirzə İbrahimovun Azərbaycan dilinin dövlət idarələrində tətbiq olunması barədə yekun fikri belə idi: "Respublikanın dövlət idarələrində və ictimai təşkilatlarında işlərin azərbaycanca aparılması isə qanuni bir haldır. Çünki bu xalqın öz idarələrini ana dilində idarə etmək arzusundan təbii bir şey ola bilməz" (2, s.71-72).

Mirzə İbrahimov həmişə dil öyrənməyin, müxtəlif dilləri bilməyin tərəfində olmuş, Azərbaycan və dünya ədəbiyyatını öyrənməyi təqdir etmişdir. İnsanların mənəvi baxımdan inkişafında və kamilləşməsində dilin, ədəbiyyatın rolunu yüksək qiymətləndirmişdir. "Ana dili ilə, doğma ədəbiyyatla yanaşı rus dili və ədəbiyyatına, Avropa və Şərq dillərinə və ədəbiyyatlarına dərindən yiyələnmiş şəxslərlə, öz sənətinin, öz peşəsinin yüksək ixtisaslı mütəxəssisi olan adamlarla ünsiyyət həmişə xoşdur, onlardan alınan təəssürat hafizədən, ürəkdən silinmir" (4, s. 270). O, Respublikada Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsində çalışan zaman dillə bağlı təklifləri, doğma ana dilini öyrənməklə bağlı fikirləri ən vacib tələb kimi irəli sürmüşdür. Və bu mübarizədə təqib və təzyiqlərə məruz qalmış, əzab və əziyyətlər çəkmişdir. Təsadüfi deyildir ki, sonralar dilimizin dövlət idarələrində işlənməsi ilə bağlı apardığı mübarizəyə dair bir qeydində bu məsələləri bir daha yada salmışdır: "Axı, o zaman, yəni yenidən-

qurma dövrünə qədərki illərdə dil siyasətində ölkə miqyasında səhvlər və məhdud, birtərəfli təsəvvürlər də güclü idi. "Ana dili" sözünə və ümumiyyətlə, respublikada dövlət idarələrində ana dilinin işlənməsinə pis baxanlar az deyildi. Milli dilin hər sahədə işlədilməsi barədə çıxış edənləri hədələyir, alınlarına "millətçi" damğası da basırdılar" (2, s. 75).

Mirzə İbrahimov termin, terminologiya məsələsinə ən əhəmiyyətli bir məsələ kimi yanaşmış, zamanın, dövrün inkişafı və elmi-texniki tərəqqi ilə bağlı olaraq dilimizə yeni-yeni terminlərin gəlməsini təbii proses hesab etmişdir. Hətta bu məsələdə yanlış və zərərli tərəfləri də öz təcrübəsi və elmi-nəzəri hazırlığının imkanı səviyyəsində təhlil etmişdir. Və kor-koranə başqa dilin sözlərini, terminlərini qəbul etməyin əleyhinə olmuş, hər şeydən əvvəl, dilin öz daxili imkanlarına əsaslanmağı, bu, imkan verməddikdə isə başqa dillərə müraciət etməyi məqbul saymışdır. O, eyni zamanda termin yaradıcığında yalnız doğma ana dilinin çərçivəsində qalmağın özünü də məhdudluq saymış, terminologiyanın inkişafına zərər gətirən bir meyil hesab etmişdir. Əlbəttə, terminologiyanın inkişafında, eləcə də termin və termin yaradıcılığı məsələsində Mirzə İbrahimovun 1978-ci ilin mart ayında yazdığı "Terminlər, fikir dəqiqliyi və dil gözəlliyi" məqaləsi indinin özündə də elmi-nəzəri baxımdan mütəxəssislər üçün faydalıdır (2, s. 80-90).

Mirzə İbrahimov nədən yazıbsa, onu gözəl yazıbdır. Dilə gəldikdə isə, dilin müxtəlif problemləri ilə bağlı qələminin kəsəri, məsələnin mahiyyətinə tam nüfuz etməsi göz qabağındadır. Təsadüfi deyildir ki, Mir Cəlal Mirzə İbrahimovun qələmi barəsində yazırdı: "Onun qələmi həmişə cilalı, parlaq kəsərli, heç vaxt qınına salınmayan silahdır. Kənd olsun, şəhər olsun, müharibə, sülh olsun, ailə ya ictimaiyyət olsun, kütləvi səhnə ya qəlb aləmi olsun, həyatımızın elə sahəsi yoxdur ki, oraya Mirzənin qələmi nüfuz etməsin, ədibin səsi, sözü eşidilməsin. O, təbiətən fəal, özünə tələbkar şəxsiyyətdir" (1, s. 41).

Mirzə İbrahimovun 1980-ci ilin yanvar ayında yazdığı "Nitq mədəniyyəti və gözəllik" məqaləsində nitq mədəniyyəti ilə bağlı, dilin gözəlliyi, ahəngdarlığı, ifadəliliyi ilə bağlı maraqlı misallar və mülahizələr söylənilmişdir ki, bunu oxuyan hər bir kəs öz payını götürür, nitq mədəniyyətinin tələblərini və normalarını qorumağa çalışır (2, s.90-97).

Mirzə İbrahimov, haqlı olaraq, hər bir kəsin lüğət ehtiyatının zənginləşməsində dilə bir xəzinə kimi baxırdı. Doğrudan da hər bir kəs bu xəzinədən istifadə edərək lüğət fondunu artıra bilər. Bunun üçün dili sevmək azdır, bu dildə olan şifahi xalq ədəbiyyatı nümunələrini, klassiklərin yaradıcılığını, müasir dövrün ədəbiyyatını müntəzəm olaraq oxumaq lazımdır. Bədii əsər oxumaq bütün zamanlarda problem kimi ziyalıları düşündürmüşdür. İndinin özündə də bədii əsərləri oxuyanların sayı azalmışdır. Mütaliə işini bir çoxları vərdişə çevirə bilmirlər. Nəticədə mütaliəsi zəif olanların nitqi də qüsurlu və bəsit olur. Onlar fikirlərini ifadə etməkdə çətinlik çəkirlər. Məhz bütün zamanlara aid olan bu məsələləri Mirzə İbrahimov o qədər dəqiq, düzgün şərh etmişdir ki, onun bu istiqamətdəki fikirlərini təsdiq etməkdən başqa bir yol görmək mümkün deyildir. "Hər kəs dilin lüğət fondunu, ifadə vasitələrini, məna çalarlarını, təşbehlərini artıra bilər. Bunun üçün nəinki dili sevmək, fikri açıq olmaq, həm də dilin ən gözəl abidəsi olan yazılı və şifahi ədəbiyyatı müntəzəm oxumaq lazımdır. Etiraf edək ki, müasir texniki vasitələr, informasiyanın hədsiz dərəcədə çoxluğu, tranzistorlar, televizorlar, ölkələr arasında əlaqələrin genişlənməsi və s. insandan çox vaxt alır. İndi elə "ziyalılar" yetişib ki, ildə bir bədii əsər oxumur. Belələri adi məişət məsələlərində də fikrini ifadə etməyə çətinlik çəkir (4, s.286).

Mirzə İbrahimov qəzet və jurnalların, elmi və ədəbi əsərlərin, radio və televiziya verilişlərinin dilinə diqqəti artırmağı vacib sayırdı. Onların dilinin yaxşı, gözəl və təsirli olmasını xüsusi olaraq qeyd edirdi. O yazırdı: "Axı mətbuat, radio və televiziya kütləvi təsir, kütləvi tərbiyə vasitələridir. Bunlar adamların dilinə də təsir edir. Yaxşı yazı, mənalı veriliş, gözəl danışmaq, gözəl yazmaq həvəsi oyadırsa, pisi də oxucuya pis vərdişlər aşılayır, onu dilə başdansovdu, məsuliyyətsiz yanaşmağa öyrədir"(4.285).

Mirzə İbrahimov bütün həyat və yaradıcılığı dövründə dil məsələsinə doğma ana dili məsələsinə, bu dilin müxtəlif problemlərinə taleyüklü bir məsələ kimi yanaşmış, bu yolda qarşıya çıxan bütün çətinliklərə öz mübarizəsi ilə cavab vermişdir. Mirzə İbrahimovun dillə bağlı çoxlu sayda fikirləri vardır ki, onları yalnız yüksək təfəkkür qabiliyyəti olan görkəmli dilçilər söyləyə bilərlər: "Dil insan ağlının qüdrətli silahıdır, insan həyatının böyük nemətı və tükənməz mədəniyyət xəzinəsidir". Yaxud: "Dil tam mənasilə canlı bir orqanizmdir. O da insan kimi doğur, törəyir, inkişaf edir". Başqa bir misal: "Dil fikrin ən incə cizgilərini, qəlbin ən dərin ehtiraslarını ifadə edə bilər. Dil şüur və düşüncənin, həyəcan və iztirabların açarıdır. Dil, eyni zamanda, şəxsiyyətin qabiliyyət və qanacaq dərəcəsini bildirən bir məhək daşıdır". Digər bir nümunə: "Söz dünyası, yəni dil sehrkar bir aləmdir. O, fikirlərlə doludur. Dil axar çay kimidir. Daima kamilləşir, artır, təzələnir, zənginləşir" və sair. Belə nümunələr Mirzə İbrahimovun yaradıcılığında yüzlərlədir. Onu da qeyd edək ki, Mirzə İbrahimovun dillə bağlı fikir və mülahizələri, mövqeyi hər birimizi, xüsusilə, ziyalılarımızı ədəbiyyatımızın, dilimizin keşiyində dayanmaq ruhunda tərbiyə edir. Zaman özü sübut etdi ki, Mirzə İbrahimovun dillə bağlı xidməti milli məfkurə sahiblərinin, ziyalıların, yazıçıların, şairlərin xidmətinə daha da güc verərək öz bəhrəsini verdi və bu xidmət əbədi olaraq Azərbaycan dilinin, bütövlükdə millətimizin qazancına çevrildi.

Rəyçi: AMEA-nın müxbir üzvü,
prof. N.Cəfərov

İstifadə edilmiş ədəbiyyat

1. M.İbrahimov. Mətnin müəllifi və tərtibçilər N.Quliyev, Ş.Salamov. Bakı: İşıq, 1988.
2. M.İbrahimov. Ana dili-hikmət xəzinəsi. Bakı,1991.
3. M.İbrahimov. Əsərləri. 10 cilddə. VII Bakı, 1981.
4. M.İbrahimov. Əsərləri. VIII Bakı,1981.

Б.Халилов

Языковедческие взгляды М.Ибрагимова

Резюме

В статье внимание обращено на проблемы языковедения и лингвистики азербайджанского языка. Автор особо подчеркнул, что одновременно и в трудах И.Гасаноглы, И. Насими, М.Физули очень серьезное внимание обращено чистоте азербайджанского языка и литературы.

B. Khalilov

Mirza Ibrahimov's linguistic thoughts

Summary

The article is focused on the purity of azerbaijan language and I. Hasanoglu, I. Nasimi,and M. Fizuli's literary activity who wrote in the azerbaijan language for the first time.